AzQAC Rəyasət Heyətinin
19 dekabr 2014-cü il tarixli
qərarı ilə təsdiq olunmuşdur.
Protokol №1

# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN ƏMƏKDAŞLARI VƏ KÖNÜLLÜLƏRİ ÜÇÜN TƏHLÜKƏSİZLİK QAYDALARI

**Preambula.**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC və ya Milli Cəmiyyət) işçi və könüllüləri üçün Təhlükəsizlik Qaydaları könüllü və işçilərimizin, habelə xidmət etdiyimiz kövrək qruplardan olan insanların təklükəsizliyini və rifahını yaxşılaşdırmaq məqsədi daşıyan bir müdafiə vasitəsidir.

Bizim missiyamız: AzQAC-nin imkanını və insanlığın gücünü səfərbər etməklə kövrək qruplardan olan insanlara xidmət etməkdir.

Bizim baxışımız: AzQAC-ni milli və beynəlxalq səviyyədə kövrək qruplara aid olan insanlara kömək edən güclü bir humanitar təşkilata çevirməkdir.

Milli Cəmiyyət işçi və könüllülərin iş təhlükəziliyini artırmaq marağındadır. Bu işçi və könüllülərimizin humanitar ehtiyacı olan insanlara daha yaxşı və asan çıxışının olması məqsədini daşıyır. Milli Cəmiyyət işçi və könüllülərinin sağlamlığını, təhlükəsizliyini və rifahını, ad və nüfuzu da daxil olmaqla AzQAC-nin fəallarını qorumağa cavabdehdir.

İşə götürən kimi personalımızın qayğısına qalmaq bizim hüquqi borcumuzdur. Öz vəzifə borclarını yerinə yetirərkən işçi və könüllülərimizi qorumaq üçün bütün mümkün tədbirləri görə bilməməyimiz Milli Cəmiyyətimizi hüquqi cavabdehlik altına alır.

2014-cü ilin yanvar ayından etibarən Milli Cəmiyyət böhran vəziyyətlərində çalışan könüllülər üçün Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Qlobal Sığortasını almışdır (Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Qlobal Sığorta Şirkəti arasında müqavilə mövcuddur). Bu sığorta öz vəzifə öhdəliklərini yerinə yetirərkən psixoloji travma/stres də daxil olmaqla mümkün zədələr üzrə nominal olaraq 200 könüllümüzə kompensasiya verəcək.

Milli Cəmiyyətimiz hər il bütün əməkdaşlarını yerli sığorta şirkətlərində illik olaraq iş saatlarında öz vəzifə öhdəliklərini yerinə yetirərkən baş verə biləcək hadisələrdən sığortalayır.

Bu Təhlükəsizlik Qaydaları vasitəsilə biz Milli Cəmiyyətimiz daxilində təhlükəsizlik mədəniyyətinə kömək etmək məqsədi daşıyırıq. Öz təklükəsizliklərinin qayğısına qalmaq üçün personal cavabdehlik daşımalı, bütün işçi və konüllülər bu qaydalardan xəbərdar olmalıdırlar və bu xüsusda Milli Cəmiyyətin təlimatlarına və proseduralarına əməl etməlidirlər.

Bu Qaydaların tətbiqinə AzQAC-nin İcraçı Katibi ümumi nəzarəti həyata keçirir. Gənclər Komistəsi, Naxçıvan Muxtar Respublikası Komitəsi, Sahə Komitələri, Regional Mərkəzlər, Yerli Bölmələr səviyyəsində isə Komitə sədrləri, Regional Mərkəz Koordinatorları, bölmə sədrləri bu Qaydaların bütün hazırkı işçilər, yenicə işə götürülmüş işçilərə və könüllülərə çatdırılması və izah olunmasını təmin etmək üçün tədbirlər görməlidirlər. Bütün işçi və könüllülər tərəfindən öz məsuliyyətlərini yaxşı şəkildə başa düşmələrini təmin etmək məqsədilə rəhbərlər (Ali, İcra, yerli) bu Qaydaları personala təqdim etməlidirlər.

**Novruz Aslanov**
**AzQAC-nin Prezidenti**

## 1. Ümumi Müddəlar

1.1. Səhra şəraitində (fövqəladə hallar zamanı, silahlı münaqişə zamanı, daxili iğtişaşlar zamanı və s.) işləyən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işçi və könüllüləri üçün Təhlükəsizlik Qaydaları (bundan sonra “Təhlükəsizlik Qaydaları” adlanacaq) aşağıdakı tələbləri qoyur:

- işçi və könüllülərimizə zərər vura bilən insidentlərin qarşısını almaq, azaltmaq və bunlara yol verməmək;

- humanitar ehtiyacları olan şəxslərə təhlükəsiz çıxışa malik olmaq bacarığımızı təmin etmək;

- fövqəladə hallar zamanı (fəlakətlər və digər kütləvi qəza vəziyyətləri, məsələn silahlı zorakılıq ilə bağlı) zərər çəkmiş şəxslərin qorunması və onlara yardım edilməsində mandat və rollarımızı yerinə yetirmək;

1.2. Təhlükəsizlik Qaydaları konfidensial (məxfi) bir sənəddir. Bu Təhlükəsizlik Qaydalarına əməl olunmamasına professional xəta kimi baxılmalı və inzibati və ya administrativ cəza ilə nəticələnməlidir.

1.3. Təhlükəsizlik Qaydalarına əməl olunması üzrə cavabdehlik AzQAC-nin Ali, Katiblik, Naxçıvan MR Komitəsi, Gənclər Komitəsi, Regional Mərkəzlər və yerli/sahə bölmələrinin rəhbərlərinin üzərinə düşür.

1.4. Yerli səviyyədə İş Təhlükəsizliyi Riskinin İdarəolunması bölmə rəhbərlərinin cavabdehliyindədər: hansı işlər həyata keçirilə bilər?

I) Biz hamımız yerli icmamızın tərkib hissəsiyik, odur ki, hamımız təhlükəsizliyimizə və işimizə təsir edə bilən faktorlar baxımından ətraf mühitin xəritələnməsinə kömək edə bilərik;
II) Öz vəzifə borclarını yerinə yetirərkən işçi və könüllülərimizin üzləşə bildiyi iş riskləri barədə onları məlumatlandırmağa bir rəhbər kimi biz (Baş Qərargah rəhbərliyi, Naxçıvan MR Komitəsi rəhbərliyi, Gənclər Komitəsi rəhbərliyi, Regional Mərkəz rəhbərliyi, yerli və sahə bölmə rəhbrəliyi) cavabdehlik daşıyırıq;
III) Yerlərə ezamiyyə olunmamışdan öncə və sonra işçi və könüllülərə standart təlimat verilməsi və sorğu-sual aparılmasını təşkil etmək;
IV) Təhlükəli ərazilərə ezamiyyə səfərləri edərkən hər zaman öncədən aidiyyatı üzrə Naxçıvan MR Komitəsi, Gənclər Komitəsi, Regional Mərkəzlər və Milli Cəmiyyətin Baş Qərargahına məlumat vermək;
V) Kommunikasiya, qərarlar və işimizi idarə edərkən işçi aləti kimi hər zaman Hərəkatın Fundamental Prinsiplərindən istifadə etmək;
VI) Qızıl Xaç və Qızıl Aypara səlahiyyəti, bacarıq və bilgilərini inkişaf etdirmək üçün işçi və könüllülərə davamlı şəkildə təlimlər vermək;
VII) Ofislərdə, anbarlarda və AzQAC-nin maşınlarında ilk yardım çantaları mütləq olmalıdır;
VIII) Stresi necə idarə etmək barədə psixoloji və psixososial dəstək və məsləhət vermək.

Təhlükəsizlik insidentləri/hadisələri zamanı bütün işçilər və könüllülər özlərinin aidiyyatı rəhbərlərinə hesabat verməlidirlər. Həmin insidentlər təhlil ediləcək və müəyyən edilmiş çatışmamazlığı aradan götürmək üçün müvafiq iş görüləcək.

**2. AzQAC-nin İşçi və Könüllülərinin Təhlükəsizliyini təmin etmək üçün ümumi iş və Prinsiplər.**

2.1. Fövqəladə hallar (təbii və texnogen fəlakətlər, silahlı münaqişə və s.) zamanı AzQAC-nin yardım əməliyyatlarına başlamazdan öncə müvafiq hakimiyyət orqanlarına xəbərdarlıq edilməklə həyata keçirilməlidir;

2.2. Missiyanın təhlükəli olduğu məlum olarsa işçi və ya könüllünü həmin missiyaya göndərməyə icazə verilmir. Riskə məruz qalan adam vəziyyət barədə tam məlumatlı olmalıdır və həmin şəxsi təhlükəli missiyanı yeinə yetirməyə məcbur etmək olmaz. AzQAC-nin bütün işçi və könüllüləri missiyanın öz həyatları və sağlamlıqlarına təhlükə doğuracağını hesab edərlərsə həmin missiyadan imtina etmək hüququna malikdirlər;

2.3. Çöl şəraitində işləyən AzQAC-nin işçi və könüllüləri hər zaman Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərini əldə rəhbər tutmalıdırlar;

2.4. AzQAC-nin işçi və könüllüləri tərəfindən yerinə yetirilən humanitar işlərin xarakteri neytral, müstəqil və qərəzsiz olmalıdır ki, bunu bütün benefisiarlar (yardım olunanlar, dəstək alanlar) məhz bu cür başa düşsünlər;

2.5. AzQAC-nin işçi və könüllüləri heç bir tərzdə silah gəzdirməməlidirlər;

2.6. Hərbi obyeklərin yaxınlığında AzQAC-nin işçi və könüllülərinin foto və audio reproduksiya avadanlığından istifadə etmələri məsləhət görülmür;

2.7. Yardım əməliyyatları gecə vaxtları həyata keçirilməməlidir, ali rəhbərliyin bu barədə xüsusi əmr verdiyi hallar istisna təşkil edir;

2.8. Çöl şəraitində xüsusi təchizat və yardım əməliyyatlarında çalışacaq işçi və könüllülərin öncədən İlk Yardım təlimlərinə yiyələnməsinə əmin olun.

**3. AzQAC-nin İşçiləri və Könüllüləri, Qurğuları və Malları xüsusunda identifikasiya (müəyyənləşdirilmə) olunma.**

3.1. AzQAC-nin bütün işçi və könüllüləri Qızıl Xaç və Qızıl Aypara (bizim halda Qızıl Aypara) embleminin fərqləndirici və qoruyucu funksiyalarını bilməlidirlər və AzQAC-nin emblem və loqosundan düzgün istifadə etməyə dair bilgiyə malik olmalıdırlar;

3.2. AzQAC-nin loqosu və adı hər zaman nəqliyyat vasitələrinin və rəsmi qurğuların (avadanlıqların) üzərində təsvir edilməlidir/müəyyən edilməlidir;

3.3. AzQAC-nin bütün məntəqələri və nəqliyyat vasitələri aydın şəkildə nişanlanmalı və bu nişanlar görünən olmalıdır. Gecə vaxtı fövqəladə hal vəziyyətlərində onların üzərində işıq saçan emblemlər və ya loqolar, projektorlar olmalıdır;

3.4. Müəyyən olunmaq və müdafiə olunmaq üçün işçi və könüllülər hər zaman üzərində AzQAC-nin loqosu olan gödəkçələr, uniformlar geyinməlidirlər və onlar bunu yalnız Milli Cəmiyyət üçün iş görərkən etməlidirlər;

3.5. Yardım əməliyyatlarına cəlb edilmiş bütün işçi və könüllülərin özlərinin AzQAC ilə əlaqəsi olduğunu müəyyən edən uzərində foto (şəkil) olan vəsiqələri və ya identifikasiya kartları olmalıdır. Bundan başqa fəaliyyətlər zamanı lazım olarsa işçi və könüllülər təyin edilmiş və/yaxud dövlət orqanları tərəfindən tələb olunan sənədlərə (məktubların surətləri, fakturalar, yol vərəqəsi və sairə) malik olmalıdırlar;

3.6. AzQAC üçün işləyərkən bütün işçi və könüllülər polis, hərbçilər və ya dövlət mühafizə qüvvələri tərəfindən istifadə olunan geyim formalarına bənzər (komuflyaj parçadan) formalar geyinməməlidirlər. Burada məqsəd AzQAC işçi və könüllülərinin yanlış şəkildə başa düşülməsinin qarşısını almaq, çaşqınlığa yol verməmək və AzQAC-nin ona Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı tərəfindən verilən aydın, müstəqil və neytral imicinin saxlanılmasıdır.

**4. Nəqliyyat vasitələrinin nişanlanması və istifadəsi**

4.1. İşçi və könüllülər tərəfindən yerlərdə işlədilən AzQAC-nin bütün nəqliyyat vasitələri müvafiq emblem və ya loqo ilə aydın şəkildə nişanlanmalıdır. Üzərində AzQAC-nin loqosu olmayan icarəyə götürülmüş maşınlardan istifadə olunmamalıdır;

4.2. Heç bir silahlı adama (nə hərbçi, nə polis, nə mülki adam) AzQAC-nin nəqliyyat vasitəsindən istifadə etməyə icazə verilməməlidir;

4.3. Yerlərə ezamiyyə səfəri planlaşdırarkən yaxın zamanlarda həmin yerdə olmuş adamdan (buraya həmkarlar, yerli dövlət məmurları, digər təşkilatlar və ya Qeyri – Hökumət Təşkilatlarının işçiləri və kommersantlar daxildir) təhlükəsizlik barədə son əldə olan məlumatı yoxlamaq lazımdır;

4.4. Səfər zamanı bildirilən marşruta əməl olunmalıdır və AzQAC-nin nəqliyyat vasitələri özlərinin təyinat məntəqələrinə ən qısa təhlükəsiz marşrut vasitəsilə catmalıdırlar;

4.5. Gecə düşdükdən sonra səfər etməkdən çəkinmək lazımdır (yalnız müstəsna hal kimi Milli Cəmiyyətin Ali Rəhbərliyinin və ya Katiblik rəhbərliyinin icazəsi ilə mümkündür);

4.6. Yerlərdə missiya yerinə yetirildikdən sonra nəqliyyat vasitələri hər zaman yola düşmə istiqamətində dayanacağa qoyulmalıdır;

4.7. Sürücülər AzQAC-nin işçi və könüllüsü olmayan şəxsləri və ya Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının digər tərkib hissələrinə aid olmayan şəxsləri və/yaxud xüsusi köməyə ehtiyacı olmayan şəxsləri öz nəqliyyat vasitələrində daşımaqdan imtina etmək hüququna malikdirlər;

4.8. Fövqəladə hal zamanı əgər nəqliyyat vasitələri radio kommunikasiya ilə təchiz olunublarsa hər dəfə yola düşmə məntəqəsindən çıxdıqda və təyinat məntəqəsinə çatdıqda yoxlamalar həyata keçirilməlidir. Münasib gələrsə yerlərə səfər zamanı da kommunikasiya saz vəziyyətdə saxlanılmalıdır;

**5. Yolda bədbəxt hadisələr**

5.1. İçki içdikdən sonra və ya psixotrop dərmanlar qəbul etdikdən sonra AzQAC-nin avtonəqliyyat vasitəsini idarə etmək qəti qadağandır.

5.2. AzQAC-nin avtonəqliyyat vasitəsi bədbəxt hadisəyə düşən zaman bu prosedura əməl etmək lazımdır:

I) Digər bədbəxt hadisələrin baş verməsinin qarşısını alın. Lazım olarsa başqalarını xəbərdar etmək üçün üçbücaq formasında olan qəza işarəsini yola qoyun. Hər hansı hadisə barədə həmişə hesabat verin.
II) Əgər yaralı adam varsa ona kömək edin. Həyəcanlanmayın və təşvişə düşməyin.
III) Ərazisində olduğunuz yerli Qızıl Aypara bölməsinə zəng edin bütün AzQAC avtonəqliyyat vasitələrində Milli Cəmiyyətin yerli bölmələrinin ünvanı və telefon nömrələrini bildirən kitabçalar olmalıdır), olduğunuz yeri söyləyin və hadisə barədə xəbər verin (kim, nə zaman, harada, sonra nə etmək niyyətiniz və ehtiyaclar).
IV) Əgər mümkünsə sığorta məqsədləri üçün hadisə barədə polis hesabatını əldə etmək üçün yaxınlıqda olan polis şöbəsi ilə əlaqə saxlayın.
V) Əgər avtonəqliyyat vasitəsini tərk etməlisinizsə mümkünsə antenna, radio, bayraq və yapışqanları çıxarın.
VI) Xətt menecerinizə (təchizat şöbəsi) xəbər verin və hesabat formasını doldurun.
VII) Hüquqi məsləhət almadan hər hansı bir sənədi imzalamayın, xüsusən də günah və ya məsuliyyəti üzərinizə götürmək barədə olan sənədi hüquqi məsləhət almadan imzalamayın. Təhlükəsizlik və ya hüquqi həmkarlarla məsləhətləşmədən qarşı tərəfə hər hansı kompensasiya ödəmək barədə razılıq verməyin.

**6. Silahlar.**

6.1. Silahların və ya hərbi avadanlığın AzQAC-nin avtonəqliyyat vasitələrində daşınması qəti şəkildə qadağandır.

6.2. AzQAC-nin avtonəqliyyat vasitələrində və ya digər qurğularında silah olmadığını göstərən (silah əleyhinə) işarə gözlə gorünən yerdə yerləşdirilməlidir.

6.3. Silahlı adamlar AzQAC-nin nəqliyyat vasitələrinə və ya binalarına daxil olmamalıdırlar. Əgər belə adamlar AzQAC-nin binasına daxil olarsa onlar silahlarını binanın giriş hissəsinə qoymalıdırlar. Əgər belə adamlara nəqliyyat vasitəsində daşınma lazım olarsa və ya əgər belə adamlar danışıq aparan şəxslərdirsə o zaman onlar öz silahlarını tərk etməlidirlər.

**7. Foto və ya video kameradan istifadə etmə.**

7.1. Hərbi əməliyyatların və ərazilərin şəklini çəkmək AzQAC personalı (işçi və ya könüllü) üçün hər zaman ciddi şəkildə qadağan olunur.

7.2. Fövqəladə hallar zamanı yalnız təyin olunmuş işçılər və könüllülər reportyorlar (informasiya və hesabat sahəsinə cavabdeh heyət) kimi çıxış edə bilərlər. Onlara yalnız AzQAC-nin yardım/cavab vermə əməliyyatlarının şəklini çəkməyə icazə verilir. Buna baxmayaraq onlar zərər çəkmiş adamların ləyaqətinə həmişə hörmət edildiyini yadda saxlamalıdırlar.

**8. Silahli eskort (müşayiət)**

8.1.Silahlı eskortdan istifadə etmək qəti qadağandır. İstisna hallarda – yoxlama məntəqələrindən keçməyə kömək etmək və ya münaqişə tərəflərindən birinin nəzarəti altında olan ərazidə təhlükəsizliyi təmin etmək üçün polis maşınları və ya hərbi maşınlarla (silahsız) müşayiət olunmağa icazə verilir. Lakin daim müşayiət olunma neytral və müstəqil bir təşkilat kimi AzQAC-nin nüfuzunu şübhə altına sala bilər.

**9. Zorakılıq vəziyyətlərində və döyüş əməliyyatları zamanı davranış qaydaları**

9.1. Əgər atışma səsi eşitmisinizsə həyəcanlanmayın. Sizin reaksiyanız atışma səsinin yaxından yoxsa uzaqdan gəlməsindən və belə vəziyyətdə daha təcrübəli ola bilən ətrafdakı adamların davranışından asılı olmalıdır.

9.2. Əgər atışma səsi sizdən kifayət qədər uzaqdadırsa, o zaman dayanın və təhlükəsiz yerə qayıdın.

9.3. Əgər atışma səsi sizə yaxındırsa, o zaman dayanın və mümkün qədər tez bir zamanda özünüzə sığınacaq tapın, yaxşı olar ki, divar arxasında və ya möhkəm bir obyektin arxasında özünüzə bir sığınacaq tapasınız və yaxud da yerə uzanın.
9.4. Əgər siz binanın içərisindəsinizsə o zaman pəncərələrdən kənara çəkilin, sizinlə təhlükə arasında iki divar olsun deyə binanın mərkəzinə yaxın bir yerə cəkilin.

9.5. Əgər silahlı adamlar szii birbaşa hədələyirlərsə əmlakı və ya pulu qorumaqla hec vaxt özünüzü riskə atmayın. Cinayətkarları qıcıqlandırmamaq üçün onların bütün tələblərinə əməl edin. Ehtiyatla hərəkət edin ki, cinayətkarlar sizə qarşı kobud hərəkətlərə yol verməsinlər. Elə edin ki cinayətkarlar sizin əllərinizi görə bilsinlər.

9.6. Məlum/naməlum adamların sizə qarşı olan yazılı və ya şifahi hədələri barədə həmişə AzQAC-nin yerli bölmə rəhbərinə və ali, icra rəhbərliyinə məlumat verin.

**10. Yoxlama Məntəqələri**

10.1. AzQAC-nin bütün işçiləri və könüllüləri yoxlama-nəzarət (buraxılış) məntəqələrində dayanmalıdırlar. Sənədləri təqdim etmək, avtonəqliyyat vasitəsini və ya şəxsi əşyalar da daxil olmaqla baqajı yoxlamaq əmrinə qarşı etiraz etməməlidirlər.

10.2. Yoxlama-nəzarət (buraxılış) məntəqəsinə yaxınlaşdığınızı gördükdə avtonəqliyyat vasitəsinin sürətini azaldın. Qara günəş eynəyinizi çıxarın. Əgər gecə vaxtı olarsa avtonəqliyyat vasitəsinin kabinəsinin işığını yandırın. Avtonəqliyyat vasitəsinin qarşı ışığını (faralarını) yandırın. Yoxlama-nəzarət (buraxılış) məntəqəsində maşını saxlayın. Əllərinizi görünən yerə qoyun. Hərəkətlərinizə nəzarət edin (əllərinizi cibinizə salıb siqaret götürmək istəyiniz yanlış başa düşülə bilər). Həyəcanlanmayın, sakit qalın və səbrli olun. Təlimatlara əməl edin.

10.3. Hər zaman nəzakətli olmaq lazımdır və yaddan çıxarmayın ki, yerli dövlət məmuru, polis işçisi və ya hərbçiyə qarşı sizin münasibətiniz AzQAC-nin digər işçiləri və könüllülərinə də təsir edə bilər.

**11. Minalar və müharibənin partlamamış qalıqları**

11.1. Minalara qarşı nəqliyyat vasitələri (zirehli nəqliyyat vasitələri) üçün passiv müdafiə tədbirlərinin görülməsi məsləhət görülmür. Ona görə də minalar və ya mina sahələrinin

olduğu ərazilərə xilasetmə qrupları göndərilməməlidir, yardım əməliyyatlarının təşkil olunması nəzərdə tutulmamalıdır.

11.2. Yüksək mina riski olan ərazilər üçün AzQAC-nin bütün işçiləri və könüllülərinə müvafiq treyninq keçirillməlidir.

11.3. Riskləri azaltmaq və daha yüksək təhlükəsizliyə nail olmaq məqsədilə mümkün olan mina sahələri barədə ən son məlumatları yerli hakimiyyət orqanları, hərbi xidmətçilər, yerli sakinlər və ərazilərin minalardan təmizlənməsi ilə məşğul olan təşkilatlardan almaq lazımdır. Səfərdə olarkən üzərində mina və mina sahələrinin olduğu yerlər təsvir edilmiş xəritəyə malik olmaq lazımdır.

11.4. AzQAC-nin işçiləri və könüllüləri həmişə aşağıdakıları nəzərə almalıdırlar:
- aşkar edilmiş mina sahələrini nişanlamaq üçün istifadə olunan işarələr;
- yerli sakinlərin kənar gəzdikləri sahələr;
- gözlə görünən minalar (partlamamış hərbi sursatlar) və minaların olduğunu göstərən işarələr;
- ərazidə müəyyən bir əməliyyatın izləri, məsələn mina yerləşdirdikdən sonra torpağın üst qatının pozulması və ya köhnə mina sahəsində torpağın çökməsi;
- tələ şəklində yerləşdirilən minalar və ya partlaya bilən oyuncaqlar;
- digər minaların olduğunu sübut edə bilən detonasiya olunmuş (partlamış) minaların izləri.

11.5. Avtonəqliyyat vasitəsində səfər edərkən AzQAC-nin işçiləri və könüllüləri aşağıdakı ehtiyat tədbirlərini görməlidirlər:
- möhkəm səthli (asfalt) yollardan istifadə etmək;
- digər avtonəqliyyat vasitəsində 50 m məsafə saxlamaqla digər həmin avtonəqliyyat vasitəsinin təkərinin izi ilə idarə etmək;
- oturacaq-təhlükəsizlik kəmərini bağlamaq;
- pəncərələri açıq saxlayın və qapıları kilidləməyin;
- avtonəqliyyat vasitəsi yolda xarab olarsa sürücü əsas yoldan kənara çıxmamalıdır.

11.6. Əgər mina aşkar olunarsa:
- minaya yaxınlaşmayın və minaya toxunmayın;
- kənardan minanın üzərinə daş atmaqla minanı partlatmağa çalışmayın;
- dərhal avtonəqliyyat vasitəsini saxlayın;
-avtonəqliyyat vasitəsində qalın, hətta xarab olduqda belə, kömək çağırın.

11.7. Avtonəqliyyat vasitəsini tərk etmək ehtiyacı olarsa:

- olduğunuz yeri radio ilə xəbər verin;
- oturacağı arxaya çəkin və avtonəqliyyat vasitəsinini arxa tərəfindən yerə düşün və təkərlərin izi ilə geri gayıdın;
- geri qayıdarkən adamlar arasında məsafə ən azı 20 metr olmalıdır;
- avtonəqliyyat vasitələrinin hərəkət yolunu bağlayın.

11.8. Piyada gedərkən heç bir tərzdə kolların arası ilə getməyin, cığırla gedin.

11.9. Əgər mina partlayarsa:
- minadan zərər çəkmiş adama tərəf dərhal qaçmayın, öncə vəziyyəti qiymətləndirin. Ətrafda piyadalar əleyhinə başqa minalar da ola bilər və buna görə də zərər çəkmiş adama ilk yardım göstərmək cəhdi yeni qurbanlar ilə nəticələnə bilər;
- mina qurbanının ayaq izləri ilə getməklə zərər çəkmiş adama yalnız bir adam ilk yardım göstərə bilər;
- zərər çəkmiş adamın bədəninin vəziyyətini dəyişmək qəti olaraq lazım olmazsa bunu etməyə çalışmayın. Mina axtaran və tibbi kömək çağırın.